"Təsdiq edirəm":__________

Qərbi Kaspi Universitetinin

icracı prorektoru R.H. Bağırov

"14" "sentyabr" 2023-cü il

# QƏRBİ KASPİ UNİVERSİTETİNİN KONSEPSİYASI

Universitetlərin sayı və miqyası bütün dünyada artdıqca, onlara müxtəlif maraqlı tərəflər tərəfindən qoyulan tələblər də genişlənir və şaxələnir, bu da müzakirələrin daha da intensivləşməsinə səbəb olur. Bu konsepsiya tədqiqat və tədrisin qarşılıqlı əlaqəsini gücləndirmək, elmi araşdırma və tədris fəaliyyətlərini bir-birinə inteqrasiya etmək və onların nəticələrini tədris prosesində istifadə etmək məqsədini daşıyır. Məqsəd, tələbələrə müasir elmi yanaşmaları və metodları təqdim etmək, eləcə də müəllimlərin tədqiqat işlərini tədris fəaliyyətlərinə daxil edərək təhsil keyfiyyətini artırmaqdır.

Müasir dövrdə yalnız əldə edilmiş biliklərin öyrənilməsinə yönəlmiş tədris prosesi artıq effektiv hesab edilə bilməz. Son illərdə universitetlərin biliklərin yaranması, yayılması və tətbiqi sahələrində rolu mühüm şəkildə artmışdır. Bugünkü universitetlər sadəcə elmi yeniliklərin, yeni biliklərin istifadəçiləri deyil, həm də bu biliklərin istehsalçılarıdır və innovativ tədris metodları vasitəsilə onların yayılmasına imkan yaradırlar. Bu baxımdan elmi-tədqiqat fəaliyyətinin və tədrisin birləşdirilməsi müasir universitet modelinin əsas fərqli cəhətidir və eyni zamanda onların inkişaf strategiyasının əsas komponentini təşkil edir. Bu cür fəaliyyət, elm vasitəsilə tədrisin təşkilinə, universitetlərin hazırladığı mütəxəssislərin və elmi-pedaqoji kadrların keyfiyyətinin yüksəldilməsinə, habelə ölkənin sosial-iqtisadi problemlərinin həllində universitetlərin fəal rolunun artmasına şərait yaradır.

Universitetlərin elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, elmi-tədqiqat universitetlərinə çevrilməsi, professor-müəllim heyətinin tədqiqat və innovasiya işlərində fəal iştirak etməsi, tələbələrin bu sahəyə cəlb olunması, elmi tədqiqat bacarıqlarının inkişaf

etdirilməsi, "universitet-biznes" əməkdaşlığının genişlənməsi, fənlərarası tədqiqatların təşviqi, elmi fəaliyyətin beynəlmiləşdirilməsi və xarici elmi mərkəzlərlə əməkdaşlıq kimi məsələlər xüsusi əhəmiyyət kəsb edir.

Bu dövrün tələb etdiyi şəraitdə universitetlər öz fəaliyyətlərini aşağıdakı prinsiplər əsasında təşkil etməlidirlər:

- Elm və təhsil proseslərinin inteqrasiyası;
- Fundamental elmin inkişafının dəstəklənməsi;
- Fundamental və tətbiqi tədqiqatların əlaqələndirilməsi;
- Tədqiqat prioritetlərinə uyğun sahələrdə resursların cəlb edilməsi və istifadə edilməsi, yeni texnologiyaların və məhsulların inkişaf etdirilməsi;
- Elmi tədqiqatlar və təhsil sahəsində aparıcı alimlərə və elmi-pedaqoji kollektivlərə dəstəyin göstərilməsi;
- Tematik planların müsabiqə əsasında hazırlanması;
- Gənclərin elmi-texniki yaradıcılığının təşviq edilməsi;
- Elmi-texniki sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi;
- Beynəlxalq birliyə inteqrasiya.

**Konsepsiyanın həyata keçirilməsinin əsas məqsəd və vəzifələri**

Universitetlərdə elmi-tədqiqat fəaliyyətinin planlaşdırılmasının və həyata keçirilməsinin əsas məqsədi, təhsilin keyfiyyətini artırmaq, yüksək ixtisaslı kadrlar yetişdirmək, ölkənin və milli iqtisadiyyatın texnoloji və rəqəmsal modernizasiyası üçün universitetin təhsil, elmi, texniki və innovativ potensialından faydalanmaq və yeni texnologiyalar yaratmaqdır. Bu məqsədin uğurla həyata keçirilməsi üçün universitetlərin spesifik xüsusiyyətləri, fəaliyyət sahələri və kadr hazırlığına dair prioritetləri nəzərə alınmalıdır.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həlli mühüm əhəmiyyət kəsb edir:

- Tədris prosesinin təkmilləşdirilməsi, yeni təhsil texnologiyalarının tətbiqi, elmi-metodiki təminatın inkişaf etdirilməsi, elmi-pedaqoji kadrların hazırlanması və ixtisaslarının artırılması üzrə elmi tədqiqatların prioritet inkişafı;
- Fundamental və tətbiqi tədqiqatların kommersiyalaşdırılmasına yönəlmiş rəqabətqabiliyyətli işlərlə (tədqiqatlarla) əlaqələndirilməsi;
- İnnovasiya və elmi-texniki sahibkarlıq sahəsində kadrların hazırlanması və onların yenidən hazırlanması;
- Elm və təhsilin inteqrasiyasının inkişaf etdirilməsi, universitetlər və elmi müəssisələr arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi;
- Ali təhsildən sonrakı mərhələdə akademik təhsilin inkişafı, o cümlədən doktorantura təhsilinin yenidən təşkili və təkmilləşdirilməsi;
- Ali təhsildən sonra ömürboyu təhsil prosesinin inkişafı;
- Tədris prosesinin bütün iştirakçılarının, o cümlədən tələbələr, doktorantlar, dissertantlar, professor-müəllim heyəti və elmi işçilərin tədqiqat işlərində iştirakının təmin edilməsi;
- Universitetlərin professor-müəllim heyətinin, ölkənin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarında, elmi-texniki və innovativ inkişaf proqramlarında, elmi qrant müsabiqələrində iştirakının artırılması;
- Elmi-texniki və innovasiya siyasətinin həyata keçirilməsində universitetlərin fəal iştirakının təmin edilməsi;
- Əlavə büdcədənkənar maliyyə vəsaitlərinin cəlb edilməsi;
- Kiçik innovativ müəssisələrin yaradılması və inkişaf etdirilməsi;
- Beynəlxalq inteqrasiyanın genişləndirilməsi, xarici investisiyaların cəlb edilməsinə şərait yaradılması;
- Universitet alimlərinin beynəlxalq elmi və təhsil proqramlarında iştirakının artırılması və xarici investisiyaların cəlb edilməsi;
- Real sektor və digər təsərrüfat subyektləri ilə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi.

**Konsepsiyanın reallaşdırılmasının təsir sahələri**

Yuxarıda qeyd olunan tapşırıqların həlli, öz növbəsində, universitetlərin elmi-tədqiqat fəaliyyətini gücləndirmək məqsədilə aşağıdakıların təmin edilməsinə şərait yarada bilər:

- Müəllimlərin elmi-tədqiqat fəaliyyətlərinə cəlb edilməsi yolu ilə mütəxəssis hazırlığının səviyyəsinin yüksəldilməsi və birinci kurs tələbələrinin elmi-tədqiqat işlərində iştirakının artırılması;
- İnnovativ tədqiqat bölmələrinin, o cümlədən fənlərarası profilə sahib şəbəkələrin inkişafı, yeni biliklərin yaradılması, bu biliklərin yeni texnologiyalara çevrilməsi və sənaye müəssisələrinə ötürülməsi;
- İnnovativ sahibkarlığın təşviq edilməsi, müvafiq şirkətlərin yaradılması təcrübəsinin genişləndirilməsi və əqli mülkiyyətin kommersiyalaşdırılması mexanizmlərinin tətbiq edilməsi;
- Tətbiqi tədqiqatların həcminin artırılması və elmi laboratoriyaların maddi-texniki bazasının gücləndirilməsi, tətbiqi elmi tədqiqatların və texnoloji həllərin keyfiyyətinə dair ekspertiza mərkəzlərinin yaradılması;
- Fundamental və axtarış xarakterli tədqiqatların keyfiyyətinin artırılması, beynəlxalq tədqiqat mərkəzləri ilə əməkdaşlığın inkişafı və birgə tədqiqatlar aparmaq məqsədilə bu mərkəzlərin mütəxəssislərinin cəlb edilməsi;
- Gənclərin elmi təşkilatlarının yaradılması və dəstəklənməsi.

**Konsepsiyanın reallaşdırılması mexanizmləri:**

- Tədqiqatçıların və alimlərin fundamental və nəzəri hazırlığının inkişaf etdirilməsi;
- Elmi-pedaqoji kollektivlərin və elm yönümlü istehsalın inteqrasiyasının dəstəklənməsi;
- Fərdi layihələrin müsabiqə əsasında qəbul edilməsi;
- Universitetin maddi-texniki bazasının inkişafı üçün effektiv sistemin qurulması;

- Elmi layihələri həyata keçirən elmi-pedaqoji kollektivlərin laboratoriyalarının dəstəklənməsi və infrastrukturun müasirləşdirilməsi;
- Layihələrin effektiv idarə edilməsi sisteminin təmin edilməsi;
- Tələbələrin və universitetin elmi-pedaqoji işçilərinin elmi fəaliyyətləri üçün əlverişli maddi və sosial şəraitin yaradılması.

**Konsepsiyanın icrasının göstəriciləri**

Bu konsepsiya çərçivəsində universitetlərdə həm elmi-tədqiqatların, həm də tədris fəaliyyətinin inkişafını xarakterizə edən əsas göstəricilər aşağıdakılardır:

- Universitetlərə iqtisadiyyatın real sektoru tərəfindən elmi-tədqiqatlarla bağlı sifarişlərin və layihə təkliflərinin (o cümlədən universitetlərin kiçik innovativ müəssisələri vasitəsilə) sayının artması;
- Universitetin kiçik innovativ müəssisələri tərəfindən istehsal olunan yüksək texnologiyalı məhsulların həcminin genişlənməsi;
- Universitetin professor-müəllim heyətinin nəşrlərinə istinad indeksinin yüksəldilməsi;
- İqtisadiyyatın real sektorunda və elmi təşkilatlarda təcrübə keçən tələbələrin sayının artırılması;
- Universitetin sifarişli elmi-tədqiqat işlərində və ya təşəbbüslü elmi layihələrdə professor-müəllim heyətinin iştirak payının genişləndirilməsi.

*Qərbi Kaspi Universitetinin Elmi Şurasının*
*14 sentyabr 2023-ci il 01 saylı protokolu*
*əsasında təsdiq olunmuşdur.*